"PORTRET AYDIN OLANDA"

Şəddat CƏFƏROV

iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü

Yazıçı-publisist Əli Rza Xələfli və "Kredo" qəzetinin gənc yazarı Ceyhun Zallının birgə yazdıqları "Böyük portretin işığı" adlı publisistik qeydlər kitabını vərəqləyirəm. Bu kitab iki cilddən ibarətdir. Birinci cilddə mənim həyatımın ötən əsrin 90-cı illərinə qədərki az qala 50 illik bir dövr əhatə olunub.

Doğrudur, müasirlərim tərəfindən həyatım, yaradıcılığım, əmək fəaliyyətim həmişə diqqətdə saxlanılıb. Mənim müasirlərimdən gileylənməyə haqqım yoxdur. Çünki fəal jurnalistlər, yazıçılar ayrı-ayrı vaxtlarda fəaliyyətimə dəyər verən məqalələrlə ardıcıl çıxış ediblər. Fatma Həsənqızı "Acılı-şirinli günlər" adlı sənədli roman, şair Elşad Səfərli "Qiymət" adlı poema, jurnalist İshaq Əmənullayev "Mənalı poliqrafçı ömrü", Sevda Əlibəyli "İlk poliqrafçı alim" adlı alim publisistik roman yazmaqla həyatımın müxtəlif tərəflərini əbədiləşdiriblər. Yazıçı-publisist Ağaddin Mənsurzadə, şair Ağamir Cavad və bir çox başqaları da gözəl şeirləri ilə mənə həyatı fərəhlə yaşamaq üçün enerji bəxş ediblər.

Əli Rza Xələfli və Ceyhun Zallının "Böyük portretin işığı" iki cildliyi haqqımda yazılanların, demək olar ki, hamısını özündə ehtiva edib. Ona görə də məhz bu kitablar haqqında bir neçə kəlmə öz təəssüratımı oxucularla bölüşməyi vacib hesab etdim. Axı hər bir yazılan həyatımızın bir tərəfinə işıq salır. Və yazılanların hamısı toplum halında həyatımız haqqında yetkin və dolğun təsəvvür yaradır. Mənə elə gəlir ki, bu baxımdan "Böyük portretin işığı" kitabı xüsusi əhəmiyyət kəsb edir.

Yazıçı-publisist, filologiya elmləri doktoru Elçin Mehrəliyev I cildə maraqlı "ön söz" yazıb. O, fikir və düşüncələrini yığcam şəkildə ifadə etsə də, oxucunu maraqlandıran məqamlara diqqəti yönəldə bilib. Hətta bəzi məqamlarda görkəmli sənətkarın - Elçin Mehrəliyevin duyğu və düşüncələri oxucunu həyat, cəmiyyət haqqında düşünməyə vadar edir. Onun mülahizələri oxucu düşüncələrini elə səfərbər edir ki, istər-istəməz həyatın mənası haqqında düşünürsən. Necə yaşamalı olduğunu və necə yaşadığını diqqətə çəkirsən. Ona görə də mən Elçin Mehrəliyevin qeydlərini oxuyanda belə qənaətə gəldim ki, hər hansı bir əsəri təhlil edən tənqidçi-publisistin gərək mətn haqqında əhatəli məlumatı olsun. Haqqında yazdığı əsəri diqqətlə oxumuş olsun. Onda əsərin ruhunu özündə ehtiva edən mətn yarana bilər. Mən hiss etdim ki, Elçin müəllim həm müəlliflərə, həm də əsərin əsas obrazı kimi mənə xüsusi rəğbətlə yanaşır. Onun fikir və düşüncələrinin doğru məntiqi oxucunu nikbin duyğularla kökləməyə xidmət edir və inanırsan ki, haqqında yazılan əsər sənin qəlbinə yüksək hərarətli duyğular bəxş edəcək. Elçin Mehrəliyevin "Böyük portretin işığı" kitabının I cildinə yazdığı "ön söz"dən bəzi parçaları oxucu diqqətinə də çəkmək istərdim: *"Həyatın yaratdığı elə portretlər var ki, bütün aydınlığı ilə hər kəs tərəfindən görünür və dərk olunur. Azərbaycan mədəniyyətində ən yaxşı ənənələrin daşıyıcısı kimi Şəddat Cəfərovun aydın portreti mühitimizdə çox yaxşı görünür. Və o, mənəvi mühitimizin tanınmış siması kimi qavranılır. Çoxlarına nəsib olmur yaşadığı dövrdə geniş miqyasda tanınmaq. Amma Şəddat Cəfərova bunu şamil etmək olmaz, çünki o, geniş ictimai ədəbi fəaliyyəti ilə Azərbaycan mənəvi mühitində təqdirəlayiq əməlləri ilə tanınıb, uzun illər ərzində müxtəlif nəsillərin yaddaşında özünə əbədi yer eləyib. Bunun bir neçə səbəbi var. O yenilikçi və tanınmış naşirdir. Azərbaycanda nəşriyyat işi sahəsində bir çox yeniliklərə imza atıb. Əlbəttə, ənənəvi mühitə hər hansı bir yeniliyi gətirmək həmişə müqavimətlə qarşılanıb. Bu mənada onun daim yeniliyə can atan is-təkləri də asanlıqla yol açmayıb. Demək, həyatı və fəaliyyəti boyu həmişə müqavimətlərlə qarşılaşıb. Düşünəndə ki, bu müqavimətləri dəf etmək üçün insan nə qədər güc, enerji sərf etməlidir... onda biz görkəmli naşirin mübarizələrdə keçən ömrünün mahiyyətini az da olsa dərk edə bilərik"*. Göründüyü kimi, müəllifin həssas münasibəti onun yazdığı mətnə xüsusi bir cazibə gətirir. Yəni müəllif insan ömrünün mübarizələrdə keçdiyini qabarıq verir və təbii ki, burada mənim həyatıma istinadı özüm üçün də kövrək hisslər bəxş edir. O doğru deyir ki, əsil portreti həyatın özü yaradır. Ümumiyyətlə, həyatın yaratdığı portret daha orijinaldır, daha qiymətlidir. Ona görə də belə portretlər hansı tərəfdən baxsan bütün parlaqlığı ilə aydın görünür.

Onu da qeyd etməyi özümə borc bilirəm ki, Elçin Mehrəliyevi lap çoxdan tanıyıram. 80-ci illərin axırlarına doğru dövrün ən nüfuzlu qəzetlərindən biri olan "Azərbaycan gəncləri"ndə rəhbər vəzifədə idi. Gündəlik redaksiya qayğıları, işin çoxluğu bir tərəfə, ancaq Elçin müəllim ardıcıl olaraq geniş və əhatəli yazılarla da çıxış edirdi, mən də onun yazılarını böyük maraqla oxuyurdum. O, ümumiyyətlə, hər hansı bir mətndə vacib elementi dəqiq tuta bilirdi. Elə "Böyük portretin işığı" kitabında da mənim həyatım üçün maraqlı olan məqamlara gur işıq salır, bununla da indiki geniş oxucu əhatəsinə mənim üçün artıq tarix olan həyatımın maraqlı məqamlarını öz təəssüratı ilə gətirə bilir.

Mənim nəşriyyat-poliqrafiya sahəsində bir çox yeniliklərim və səmərələşdirici təkliflərim o dövrün poliqrafiya sənayesində böyük məmnunluqla tətbiq olunur, istehsalatda gəlir gətirirdi. Əli Rza Xələfli mənim "İlklərim" haqqında "İlklərin paradı" adlı bir yazı ilə çıxış edib. Müəllif həmin yazıda poliqrafiya sahəsinə gətirdiyim yenilikləri sıralayır. Onu da deyim ki, mən ardıcıl olaraq o dövrün "İttifaq" mətbuatında çıxış edirdim. Yazılarım Azərbaycan və rus dilində çap olunurdu. Və elə bu səbəbdən də məni nüfuzlu ədəbi orqanlara üzvlüyə qəbul etmişdilər. Elçin müəllimin qeydlərini vərəqlədikcə görürəm ki, o, həyatının bu məqamlarını diqqətdə saxlayıb. İstər-istəməz həyatımın uğurları sırasında olan həmin məqamlar məni çox fərəhləndirir, həyatıma işıq bəxş edir. Elçin Mehrəliyev yazır: *"Şəddat Cəfərov çoxtərəfli əməli fəaliyyəti ilə çoxistiqamətli ziyalıdır. Əlbəttə, birinci növbədə naşirdir. Özü də keçmiş Sovetlər İttifaqında tanınan və təqdir olunan naşirdir. Nəşriyyat işi sahəsində bir çox "ilk"lərin müəllifidir. Şəddat müəllimin ikinci böyük fəaliyyət sahəsi onun jurnalistlik işi ilə bağlıdır. O, hələ ötən əsrin 80-ci illərindən SSRİ Jurnalistlər İttifaqının üzvü idi. O vaxtdan bəri keçmiş Sovetlər İttifaqına məxsub olan mətbuat orqanlarında onlarca məqalə çap etdirib. Bu məqalələrdə o, prinsipial, əqidəli jurnalist mövqeyini qo-ruyub saxlayıb. Şəddat müəllim həm də bədii yaradıcılıqla məşğul olan qələm əhlidir. Yumoristik hekayələri, bədii oçerkləri, portret yazıları ilə postsovet məkanında, eləcə də Azərbaycanda məhsuldar bir yazıçı kimi tanınır. "Böyük portretin işığı" kitabında Şəddat Cəfərov həm də Azərbaycanın ilk poliqrafçı alimi kimi təqdim olunur. Onun çox dəyərli elmi araşdırmaları poliqrafiya sahəsinin nəzəri istiqamətlərini müəyyənləşdirir. Kitab çapı işinin elmi mahiyyətinə, estetik prinsiplərinə aydınlıq gətirən monoqrafiyaları müvafiq sahələr üzrə mötəbər dərsliklərdir"*. Təsəvvür edirsinizmi? Kitablarımın, əlbəttə, söhbət poliqrafiya ilə bağlı elmi əsərlərimdən gedir - Moskva universitetlərində istifadə olunması mənim üçün nə qədər böyük uğur idi. Bu uğurları yada salmaq indi görün mənim üçün nə qədər xoş təəssürat yaradır. Onu da deyim ki, "Böyük portretin işığı" kitabının ən önəmli cəhətlərindən biri də ayrı-ayrı esselərin lirik ovqatda yazılmasıdır. Elçin Mehrəliyev həmin yazıların adlarını çəkir: "Bir ad tanıyıram", "Dağ qüruru, dəniz ləngəri", "Yaşamağın dəyəri"... Elçin Mehrəliyev qeyd edir ki, müəlliflər bu kimi yazılarda əsas obrazın ən xarakter cizgilərinə güclü fikir işığı salır, ədəbi qəhrəmanı oxucularına yaxından tanıtmağa çalışırlar. Doğrusu, elə kitabı da vərəqlədikcə Elçin Mehrəliyevin "ön söz"ünü də ardıcıl olaraq oxuduqca qəlbim fərəh hissi ilə döyünür. Çünki Elçin Mehrəliyev demək olar ki, həyatımla bağlı heç bir faktı diqqətdən kənarda qoymur. Mən onun qeydlərində tanınmış şairlər Həmid Abbasın, Şəkər Aslanın, Azad Talışoğlunun, Cavad Zeynalın adlarına rast gəlirəm. Həqiqətən, bu müəlliflərin hər biri mənə gözəl şeirlər həsr ediblər. Görünür, insan hisslərinə təsir edən duyğular heç vaxt unudulmur, yaddan çıxmır. Elçin müəllim də elə bu hissin təsiri altında şairlərin adlarını çəkir, onların yazdıqlarına münasibət bildirir. Xüsusilə Əli Rza Xələflinin və Ceyhun Zallının bu müəlliflərin əsərlərini bir araya gətirməsini təqdir edir və yüksək qiymətləndirir. Mən artıq qeyd etdim ki, təkcə elmi-publisist yaradıcılıqla məşğul olmamışam. Bədii yaradıcılıq da mənim əsas fəaliyyət sahələrimdən biri olub. Satirik, yumoristik hekayələr kitablarım təkcə Azərbaycanda yox, Rusiyada da işıq üzü görüb. Və həmin kitabların ədəbi tənqidimiz tərəfindən diqqətə çəkilməsi də mənim üçün çox xoşdur. Elçin Mehrəliyev "Böyük portretin işığı" kitabında bədii yaradıcılığımla bağlı məqamları xatırladanda, görünür, bədii sözün təsir gücünü əsas götürüb. Axı həmin kitabda bədii yaradıcılığımın təhlilinə həsr olunmuş ayrıca bir bölmə var. Monoqrafik qeydlər adı ilə kitabda yer alıb: "Böyük portretin işığı" kitabının birinci cildində verilmiş "Monoqrafik qeydlər" bölməsi xüsusilə diqqəti cəlb edir. Bu bölmədə müəlliflər Şəddat Cəfərovun yumoristik hekayələrini belə bir ideya əsasında təhlilə cəlb edirlər: *"Özünü tanımağın yolu, yaxud gülüşün estetik mahiyyəti". Bu bölmədəki başlıqlara diqqət etmək bəs edərdi ki, məsələnin mahiyyətini aydın başa düşəsən: "Gülürsən - güclüsən", "Qəlbimiz gülüşlə nurlanırsa", "Kədər var, sevinc var", "Sənətə sevgi, həyata vergi", "Daha üstün fayda", "Gülməyi də bacarmalısan"... Bir sözlə, "Böyük portretin işığı" kitabının birinci cildi poliqrafiya tariximizin araşdırıcıları üçün nə qədər maraqlıdırsa, sənətşünaslarımız və ədəbi tənqid sahəsində çalışan mütəxəssislərimiz üçün də elə bir o qədər maraqlı olacaq"*. Mənim üçün maraqlı olan odur ki, hər bir müəllif sözün düşüncəni əhatə edən məqamlarına daha çox üstünlük verdiyi kimi Elçin Mehrəliyev də kitabda mənim bədii yaradıcılığımı təhlil edən məqamlara xüsusi önəm verir. Görünür, elə bu səbəbdən də Əli Rza Xələflinin "Gülüşün estetik mahiyyəti" ilə bağlı ədəbi tədqiqat yazılarını diqqətə çəkir. Doğrusu, bu təqdir olunan fikirlər məni kifayət qədər təmin edir. Əsas da ona görə ki, insan öz əməlinin yaşarılığına məhz bu cür təqdirli məqamlarda daha çox inanır. Ola bilsin ki, kitabda bir çox dəyərli, bədii motivinə görə məni təsirləndirən məqamlara da diqqət yetirərəm. Ancaq hələlikdə professor Yadulla Ağazadənin kitab üçün yazdığı rəy də könlümə xoş duyğular bəxş etdi: *"Əli Rza Xələfli və Ceyhun Zallının müəllifliyi ilə təqdim olunan "Böyük portretin işığı" publisistik kitabı Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərovun həyatı, fəaliyyəti, elmi və bədii yaradıcılığı haqqında dolğun və əhatəli məlumat verir. Bu kitabda Azərbaycanın tanınmış ziyalısı Şəddat Cəfərovun həyatının müxtəlif tərəfləri, o cümlədən, bədii yaradıcılığı kifayət qədər dolğunluğu ilə təhlilə çəkilir. Xüsusilə, Şəddat müəllimin həyatdakı obrazının portret cizgiləri, qeydləri nə qədər dolğunluğu ilə təqdim edilirsə, onun bədii yaradıcılığının təhlilini əks etdirən "Özünü tanımağın yolu", yaxud "Gülüşün estetik mahiyyəti" adlı monoqrafik qeydləri bir o qədər sənətkarlıqla işıqlandırılır. Biz monoqrafik qeydlərdə Şəddat Cəfərovu sözün həqiqi mənasında yumorist kimi görürük. Kitabda şair Elşad Səfərlinin, yazıçı Fatma Həsənqızının, yazıçı-publisist Sevda Əlibəylinin, Ağaddin Mansurzadənin Şəddat Cəfərov haqqında poetik, bədii nəsr və publisistik kitabları da kifayət qədər əhatəli təhlilə cəlb edilir. Əli Rza Xələfli və Ceyhun Zallının birgə əsəri kimi "Böyük portretin işığı" kitabının geniş oxucu əhatəsində maraq doğuracağına inanırıq"*. Şübhəsiz, belə bir rəy həm də ona görə dəyərlidir ki, mənim üçün doğma olan cənub bölgəsinin təmsilçisi olan ziyalı tərəfindən yazılıb. Bəli, Yadulla Ağazadə ilə də mənim kifayət qədər yaxın ünsiyyətli münasibətim var. Onun da kitablarını nəşr etmişəm. Təbiət etibarı ilə çox istiqanlı, ağır, təmkinli ziyalıdır. Həyatının mənasını yaradıcılıqda, yazıb-yaratmaqda görür. Ona görə də mən yaradıcılıq əlaqəsi ilə ünsiyyət tapdığım insanların obrazlarını unutmuram. Çünki belə adamlarla məni həm də həzin xatirələr bağlayır.

Ümumiyyətlə, "Böyük portretin işığı" kitabı zəngin bədii-publisistik tədqiqatların və çoxəhatəli həyat materialının əsasında yazılıb. Kitabın hər səhifəsinin yazılması üçün müəyyən fakt əsas götürülüb. Səhifələr dəyişdikcə yeni faktlar, yeni hadisələr oxucunu öz cazibəsinə alır.

(Davamı 11-ci səhifədə)

(Əvvəli 10-cu səhifədə)

Müəlliflər nə vaxt faktı mənalandıra-mənalandıra özünün duyğulanmalarını da yazıya gətirə bilir. Zənnimcə, bu o vaxt olur ki, hər bir müəllif təsvir etdiyi hadisəni və yaxud tərənnüm etdiyi obrazı özünün təsəvvür edə bildiyi səviyyədə görə bilir. Əgər müəllif hər hansı bir obrazı qəlbinin səsi ilə duymasa, onu bütün varlığı ilə sevməsə heç onun haqqında yaza da bilməz. Amma müəllifin qəlbini titrədən hadisə və yaxud əhvalatın iştirakçısı düşüncəsində rəğbət və sevgi hissləri doğurursa, onda ilhamı qanadlanır. Bütün gücü ilə sözə sarılır, sözü varlığından keçirərək obraza rəng verməyə başlayır. Bu zaman mətn içində yeni mətnlər yaranır.

"Böyük portretin işığı" kitabının lap əvvəlində müəlliflərin həyat haqqında düşüncələri verilir. Onlar həyatı "çoxşaxəli yollar" adlandıraraq belə bir qənaətə gəlirlər ki, bütün yollar insanın özündən başlanır. Doğrudan da, insan arzularının həyata keçməsinə mübarizə aparır, çalışır. Bütün varlığı ilə öz istəklərini reallaşdırmaq istəyir. Və bu zaman onu nələr gözləyir, nələrlə qarşılaşacaq - bax bu sualların cavabları insanın həyatı qarşısında açılan yolları göstərir.

Mən harada olmuşamsa, vətənimi bir an da unutmamışam. Mənim belə bir sözüm var ki, öz vətənindən kənarda olan insan harada olur, olsun, o elə öz vətəninin bir parçasıdır. Çox səmimi deyirəm ki, müəlliflərin təqdim etdikləri lirik mətnlərdə öz hisslərimi də görürəm. "Dağ və dəniz" adı ilə başlanan essenin mahiyyətinə hər kim vara biləcəksə, fikirlərimin səmimiliyinə də inanacaqdır: *"Dağ və dəniz... Azərbaycan təbiətinin gözəllik mahiyyəti... Bəlkə də böyük Şərqin bir zamanlar yarısına qədərini özündə ehtiva edən Azərbaycanın yenə elə o tarixi gücdə qalmasının, özünü hifz edə bilməsinin əsas qaynağı da elə Qafqaz və Xəzər xəritəsidir. Bütöv azərbaycanlı obrazının özünü dağ və dəniz vəhdətində görürəm. Mənə elə gəlir ki, vətəninə, yurduna, xalqına bağlı olan hər kəsin əzəməti, qüruru Azərbaycan dağlarından güc alır. Mənəvi zənginlik, təmkin, həyatın gözlənilməz, getgəllərindən baş çıxara bilmək qüdrəti də elə dənizlə bağlıdır. İnsan dünyanı birinci gözləri ilə oxuyur. Təbiəti oxuyur, təbiət və insan bağlılığından gələn dərsləri öyrəndikcə, bəsirət gözləri açılır, həyatı oxuyur, insanları oxuyur. Başqa sözlə, kamilliyin yolu elə budur. Bu yoldan keçməklə insan müdriklik zirvəsinə ucala bilər".* İndi bu mətni oxuyan hər kəs sanki həyatın onun üçün sirr olan bir tərəfi ilə tanış olur. Belə düşüncələr insanın daxili aləmini zənginləşdirir. Ona müəlliflərin qeyd etdiyi kimi təmkin bəxş edir, həyatın gözlənilməzliklərindən çıxış yollarını göstərir. Görünür, insanın kamilləşməsinin bir yolu da yazılanlardan düzgün nəticə çıxarmasıdır. Daha bir mətn də diqqətimi çəkir. Müəlliflər şərti olaraq bunu "yaşamaq və yaratmaq" adlandırır. Ritorik suallarla süslənmiş mətnin oxucudan tələbi nədir? Məncə, bu mətnin əsas ideyası elə yanaşı verilmiş həmin iki sözdə, yəni yaşamaqda və yaratmaqda ifadə olunub.

Qabaqcadan onu deyim ki, yaşamaq haqqı o insanlara verilir ki, o yaratsın. Bu yaratmaq ifadəsinin mənası çox genişdir. Yəni ki, hər bir kəs faydalı iş görməlidir. Cəmiyyət üçün, insanlar üçün elə faydalı işlər görməlidir ki, gələcəkdə onu arayıb-axtaranlar həmin faydalı işin izi ilə gedəndə həyatı yaşamaq onlar üçün təcrübə olsun. Üstəlik yaratmaq insanın izi deməkdir. Müəlliflər həmin mətni belə təqdim edir: *"... Yaşamaq və yaratmaq... Əslində, elə insanın keçəcəyi, ötəcəyi bir aləm varsa, o da elə bu iki qütbün arasında cəmlənir. Harda doğulmusan, harda böyümüsən... bütün bunlar sənin həyatının bir mərhələsidir. Ancaq necə yaşamısan və yaşadığın dövrdə gördüklərin, gözünə, yadduşuna yığdıqların sənin mənəvi aləmində hansı izləri qoyub. Bu izləri bu gün o, ruhunda, varlığında yaşayan aləmdən sən necə çəkib bu günə gətirə bilirsən? Bu günün insanlarına deməyə sözün varmı? Bütün məqamlarda elə görüntülər var ki, bəsirət gözü açıq olanlar üçün keçmiş zaman və gələcəyin arasındakı dövrü göstərmək gücündə olur. Bunu kimlərinsə simasında görmək, anlamaq, duymaq hər kəsin öz işidir. Ancaq mən bir ünvan göstərə bilərəm. Bu, onun ünvanıdır - Şəddat Cəfərovun".* Bu mətndə sanki müəlliflər insanın həyatını mənalı edə biləcək məsələləri yazıblar. Üstəlik də, konkret olaraq kimdənsə söhbət getmir. Amma fikirlərin məntiqi ardıcıllığı ritorik sualların bir-birini tamamlaması ilə üzə çıxır. Və sözlərinin sonunda konkret ad çəkirlər. Bu da müəlliflərin mətni daha oxunaqlı edən məntiqidir. Həyat hadisəsinə ümumi şəkildə yanaşmaq və onu konkret şəxslə bağlayaraq cəmiyyətə aid etmək, bu əlbəttə, yazıçının məharətidir.

Diqqətimi cəlb edən bir neçə cümləlik esse mətni də məndə dərin təəssürat oyatdı. Elə bilirəm ki, həmin mətnin olduğu kimi oxucuya çatdırılması çox faydalı olar. Çünki ruha təsir edən mətni hər kəs oxuyursa, onun varlığında mütləq daha üstün dəyişilmələr baş verir. Hətta ən sərt, ən kobud adam belə incə sözün qarşısında tabe olmaya bilmir. Əli Rza Xələflinin və Ceyhun Zallının kitabda verilmiş 3-4 cümləlik essesini kim oxuya bilsə, mənimlə mütləq razılaşar: *"İnsan dağ və dənizin övladıdır. Mənəviyyatın genişliyi, zənginliyi təbiətin düşüncə sonsuzluğunacan uzanan düzlərə bənzəyir. Əlbəttə, bütün şərtiliklər nəzərə alınmaqla... Həyat çoxşaxəli yollar şəbəkəsidir. Bütün yollar insanın özündən başlanır. Yollar həm də mənəvi ucalıqda sona çatır".* Həyat yolunda irəliləyən insan başlanğıcını ana qucağından alsa da, insanlığın əzəli təbiətlə bağlıdır. İnsan təbiətdən doğulub, zaman-zaman yol keçib, şüur kəsb edib, təcrübə qazanıb, həyat yollarında elə həyat uğrunda mübarizə ilə möhkəmlənib. Doğrusu, "Böyük portretin işığı" kitabı yalnız mənim haqqımda yazıldığı üçün yox, həm də mənim həyat və cəmiyyət haqqında düşüncələrimə sanki ikinci həyat verdiyi üçün mənə çox qiymətlidir.

Tale elə gətirib ki, bütün həyatım, varlığım vətənlə bağlı olsa da, müəyyən zaman ərzində kənarda yaşamalı olmuşam. Və o zaman vətəndə olmağın nə qədər böyük xoşbəxtlik olduğunu bilmişəm. Mənə elə gəlir ki, insan qürbətdə yaşayanda işi, gücü nə qədər yaxşı olur, olsun dəxli yoxdur, onun varlığında bir niskil olur. Özü haqqında, qazandığı təcrübə haqqında, həyatla bağlı qənaətləri haqqında daha çox düşünməyə vaxtı olur. Mən həyatımın müəyyən mərhələlərini *başa düşən adam xoşbəxt olar". Qızılı rənglər bir az da tündləşib və yerdə də xəzəllər çoxdur. Sanki ağacın yarpaqlarının arasından müdrik, dünyanı yaşamış insanın özü gülümsəyir, ancaq bu gülümsəməni də təzahür edir: "Səbir edən üçün hər şey vaxtında gələr". Yarpaqlarını tökmüş həmin o möhtəşəm ağacın fonunda indi kimə isə nə isə demək istəyən, amma demədiyi sözü dünyadan, insandan əsirgəməyən həmin tanış obraz yenə görünür: "Xoşbəxtliyi qürbətdə yox, vətəndə axtar". Təzədən qış aləmini görürük. Sinəsi orden və medallarla bəzənmiş bir kişi bizə sanki səmadan baxır və onun heç nə deməyən və səssiz danışan simasından oxuyuruq: "Vətəni sevən insan hər şeyə qadirdir".* Bu mətni oxuduqca mənim dırnaq içərisinə alınmış qeydlərimin nə vaxt, hansı hadisə, hansı situasiya ilə bağlı deməyimin təferrüatı gözlərimin önündə canlanır. Bu ifadələri düşüncəmdən yazıya köçürməyimin səbəbləri müxtəlif olub. Müxtəlif ovqatlarda bu fikirləri ifadə etmişəm. Bəzən əsəbi olmuşam, hansısa bir haqsızlıq məni düşüncələrə dalmağa vadar edib. Bəzən sevincli, fərəhli anlar könlümə xoş ovqat gətirib. Bir sözlə, Əli Rza Xələflinin dəyər verdiyi bu ifadələr mənim həyatımın müxtəlif anları ilə çox bağlıdır. Özü də əgər diqqətli oxucu fikir verərsə, görəcək ki, Xələfli sanki mənimlə dialoq aparır. Fikirlərimin mahiyyətini müəyyən mənzərəyə uyğun şərh edir. Bir sözlə, mənə elə gəlir ki, bu mətnin özü də insanı həyata, yaşamağa çağırır. Özü də yuxarıda qeyd etdiyim kimi yaşamaq və yaratmaq düsturuna uyğun hisslər təlqin edir.

Bu kitabda bir neçə bölmə var, xüsusilə bir bölmə mənə həsr olunmuş şeirlərin təhlilindən bəhs edir. İndi həmin şeirlərin müəlliflərinin bir çoxu həyatda yoxdur. Bu da həyatın təkzibolunmaz hökmüdür. Mən burada Ağaddin Mənsurzadənin kitabına həsr olunmuş səhifələrdən də bəhs edə bilərdim. Nəysə... Yazmalı, xatırlamalı məsələlər çoxdur.

"PORTRET AYDIN OLANDA"

Bir daha qeyd edirəm ki, yazıçı Elçin Mehrəliyevin qeyd etdiyi kimi bu kitab böyük zəhmətin bahasına başa gəlib. Zəhmət harada çəkilirsə, orada bitən zəhmət güllərinin ətri də, təravəti də çox qiymətlidir.

İndi bu təəssüratları yaza-yaza düşünürəm ki, əgər günümüzün olayları, tanıdığımız maraqlı insanlar, cəmiyyətdə kifayət qədər iz buraxmış sənət nümunələri haqqında yazılmasaydı, onda mənəvi mühitimiz nə qədər kasıb görünərdi. Üstəlik, ən pisi də odur ki, həyatımızı maraqlı edən, dünyamızın taleyini qorumağa çalışan insanlar da unudulardı. Əslində, mən elə bu qeydləri qələmə alarkən Əli Rza Xələfliyə də, Ceyhun Zallıya da müəllif kimi minnətdarlığımı bildirmək istədim. Şübhəsiz, bu minnətdarlıq duyğularını eyni zamanda mən görkəmli yazıçı Elçin Mehrəliyevə, böyük alimimiz Yadulla Ağazadəyə də ünvanlamaq istərdim. Çünki, müəlliflərin işindən sonra kitaba ilk dəyər verən missiya sahibləri, redaktorlar, rəyçilərdir. Mən, şübhəsiz, akademik Nizami Cəfərova da minnətdarlığımı bildirirəm, ona görə ki, "Böyük portretin işığı" kitabının əhəmiyyətini o da yaxşı bilir və bu nəşri yüksək səviyyədə təqdir edir.

Yuxarıda qeyd etdiyim kimi bir qədər də kitabın bədii motivləri ilə bağlı düşüncələrimi bölüşmək istərdim. Çünki hər hansı bir bədii mətn oxucunun ruhunu, varlığını saflaşdırmaq baxımından əvəzsiz dəyərə malikdir.

"Böyük portretin işığı" kitabında da Ə.R.Xələflinin lirik esse üslübü demək olar ki, hər bir səhifədə hiss olunur. Ceyhun Zallını yaxşı tanıyıram. O, "Kredo" qəzetində çalışırdı, maraqlı yazılar yazırdı. Onun "Mənim Şəddat babama" məktub adlı yazısını oxuyanda hansı hissləri keçirirəm - mən bilirəm. Ceyhun sonra hərbi xidmətə getdi. Erməni təxribatına qarşı Zəngəzur döyüşlərində iştirak elədi. Bu günlərdə o, hərbi xidmətini başa vurmaqdadır.

Mən deyə bilmərəm ki, haqqımda bundan sonra nə yazılacaq, nə yazılmayacaq - bu, gələcəyin işidir. Ümumiyyətlə, gələcək nəsillər özlərindən əvvəlki tarixi araşdıranda maraqlı nələrisə görürlərsə, bunu mütləq təzədən sözə gətirməyə, dövrün tələbinə uyğun mənalandırmağa çalışırlar. Ancaq mən qətiyyətlə deyərdim ki, "Böyük portretin işığı" kitabı həyatımın demək olar ki, hər bir sahəsinə, zamanımın hər tərəfinə dolğunluğu ilə işıq sala bilib. Düşünürəm ki, gələcək nəsillər həm də poliqrafiyamızın tarixi ilə bağlı bir çox suallara da "Böyük portretin işığı" kitabında cavab tapa biləcəklər.

04.11.2022